AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRLİYİ

AZ1022 Bakı, Nəsimi rayonu, M.Mirqasımov küç., 1A
Tel.: (+994 12) 598 50 94 Faks: (+994 12) 493 06 95
www.health.gov.az
Elektron ünvan: office@health.gov.az

17.05.2013 № 43

№-zə ____________________

# Ə M R

**"Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçılarının və qonaqların tibbi təminatı barədə"**

Bakı şəhərində 2013-cü il 29 may - 1 iyun tarixlərində "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsinə dair Tədbirlər Planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Rəhbərinin 2012-ci il 25 dekabr tarixli 121 nömrəli Sərəncamının icrasını təmin etmək, forum iştirakçılarına və qonaqlara tibbi xidməti təşkil etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova və Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi E.Əliyevaya tapşırılsın ki, forumunun keçiriləcəyi, tədbir iştirakçılarının və qonaqların yaşayacaqları, proqram üzrə tədbirlərin keçiriləcəyi digər yerlərdə təcili tibbi yardım xidmətinin sutka ərzində növbətçiliyi təmin edilsin (əlavə olunur).
2. Əmrin əlavəsində göstərilən tibb müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, forumun keçiriləcəyi müddət ərzində, ehtiyac olduğu halda tədbir iştirakçılarının və qonaqların hospitalizasiyası üçün lazımi şərait yaradılsın və bu məqsəd üçün ehtiyat çarpayıların ayrılması təmin edilsin.
3. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova tapşırılsın ki, nümayəndə heyətləri üçün ayrılmış iaşə müəssisələrində sanitariya-gigiyena qaydalarına riayət edilməsi üzərində nəzarət təmin edilsin.
4. İnnovasiya və Təchizat Mərkəzinin direktoru F.Əliyarzadəyə tapşırılsın ki, Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası təqdim olunmuş sifariş əsasında dərman preparatları, ilan zəhəri əleyhinə zərdab və tibbi ləvazimatlarla təmin edilsin.
5. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

**Nazir müavini** **Abbas Vəlibəyov**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
17 may 2013-cü il tarixli,
43 nömrəli əmrinə
1 nömrəli əlavə

**Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi yerlərin, qonaqların yerləşdiriləcəyi mehmanxanaların və tədbirlərin keçiriləcəyi yerlərin**

**SİYAHISI**

**Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi yerlər**

1. Heydər Əliyev Mərkəzi
2. JW Marriott Absheron mehmanxanası
3. Park İnn Radisson mehmanxanası

**Qonaqların yerləşdiriləcəyi mehmanxanalar**

1. Four Seasons mehmanxanası
2. JW Marriott Absheron mehmanxanası
3. Hilton mehmanxanası
4. Park Inn mehmanxanası
5. Excelsior mehmanxanası

**Tədbirlərin keçiriləcəyi yerlər**

1. Qobustan Milli Tarix-Bədii Qoruğu
2. "Yanar dağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu
3. "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu
4. "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu
5. Dənizkənarı Milli Park
6. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası
7. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Milli Azərbaycan Tarixi Muzeyi
8. Azərbaycan Milli İncəsənət Muzeyi
9. Müasir İncəsənət Muzeyi
10. Muzey Mərkəzi
11. Beynəlxalq Muğam Mərkəzi
12. Bakı Caz Mərkəzi
13. Buta Saray
14. Gala Bazaar restoranı
15. Qəbələ və Şəki rayonları

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
17__ may 2013-cü il tarixli,
43__ nömrəli əmrinə
2 nömrəli əlavə

**Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi müddət ərzində, ehtiyac olduğu halda tədbir iştirakçılarının və qonaqların hospitalizasiyası üçün müəyyən edilən tibb müəssisələrinin**

**SİYAHISI**

1. Akademik M. Mirqasımov adına Respublika Klinik Xəstəxanası
2. Akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzi
3. Akademik M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi
4. ET Travmatologiya və Ortopediya İnstitutu
5. Kliniki Tibbi Mərkəzi
6. Mərkəzi Neftçilər Xəstəxanası
7. 3 nömrəli Şəhər klinik Xəstəxanası